# Tarixi və mədəni yaddaşımız qlobal tribunalarda




**Azərbaycan tarixinin son iki əsri təkcə dövlətçilik uğrunda mübarizələrlə deyil, həm də xalqımıza qarşı həyata keçirilən ardıcıl soyqırımı və mədəniyyəti məhvetmə siyasəti ilə yadda qalmışdır. Bu hadisələr ermənilər tərəfindən sistematik şəkildə həyata keçirilmiş dövlət siyasətinin tərkib hissəsi kimi tarixə yazılmışdır. Rusiya imperiyasının Cənubi Qafqazda möhkəmlənməsi ilə bərabər, bölgədə demoqrafik vəziyyət planlı şəkildə dəyişdirilməyə başlandı. Bu siyasətin əsas hədəfi yerli müsəlman-türk əhalinin sıx yaşadığı ərazilərə, xüsusilə də İrəvan xanlığının ərazilərinə ermənilərin köçürülməsi idi. Bu məqsədlə 1828-ci il Türkmənçay müqaviləsindən sonra İrandan və Osmanlıdan on minlərlə erməni köçürülərək Azərbaycanın Qərb torpaqlarına yerləşdirildi.**

Bu proses təkcə demoqrafik tarazlığı dəyişmək üçün yox, eyni zamanda gələcəkdə erməni dövlətçiliyinə zəmin yaratmaq üçün aparılırdı. 1905-1907-ci illərdə Rusiya imperiyasında baş verən ixtişaşlardan istifadə edən erməni silahlı dəstələri azərbaycanlılara qarşı müxtəlif bölgələrdə, Bakı, Naxçıvan, Zəngəzur, Şuşa və digər şəhərlərdə vəhşicəsinə qətliamlar törətdilər. Bu hadisələr bir daha sübut etdi ki, münaqişənin kökündə həm də siyasi hegemonluq iddiası dayanırdı. 1918-ci ildə isə bu nifrət kulminasiya nöqtəsinə çatdı. Daşnaksütyun partiyasının rəhbərliyi ilə erməni silahlı birləşmələri Bakıda, Qubada, Şamaxıda və digər ərazilərdə minlərlə günahsız müsəlman türkü vəhşicəsinə qətlə yetirdilər. Bu, təkcə bir xalqın yox, onun mədəniyyətinin, tarixi yaddaşının, dini irsinin də məhv edilməsinə yönəlmiş planlı soyqırımı idi.

Sovet dönəmində də azərbaycanlılara qarşı yönəlmiş təzyiqlər davam etdi. Xüsusilə 1930-cu illərdə baş verən repressiyalar zamanı Qərbi Azərbaycanda yaşayan azərbaycanlı ziyalılar, müəllimlər, din xadimləri ya sürgün edildi, ya da qətlə yetirildilər. 1948-1953-cü illərdə isə yüzminlərlə soydaşımız Ermənistan ərazisindən deportasiya olundu. Bu, Ermənistan SSR-də azərbaycanlı izinin sistematik şəkildə silinməsinin bir mərhələsi idi. Sonuncu mərhələ isə 1988-ci ildə baş verdi. Ölkədə yaşayan 300 minə yaxın azərbaycanlıya qarşı genişmiqyaslı hücumlar, işgəncələr və zorakılıq həyata keçirildi. Bütün bunlar nəticəsində soydaşlarımız öz doğma yurdlarından qovuldu. Azərbaycan xalqına qarşı yönəlmiş bu siyasət insan itkiləri ilə yanaşı, həm də xalqın tarixi yaddaşının, mədəni irsinin məhv edilməsi ilə müşayiət olundu. Qərbi Azərbaycanda min illərlə mövcud olmuş məscidlər, türbələr, saraylar, körpülər, qəbiristanlıqlar sistemli şəkildə dağıdıldı. Tarixi mənbələrə görə, 1912-ci ilə qədər İrəvan qəzasında 42, Üçkilsə qəzasında 33, Zəngəzur qəzasında 35 məscid fəaliyyət göstərirdi. XX əsrin əvvəllərində isə ümumilikdə İrəvan quberniyasında 310-dan artıq məscid mövcud idi. Lakin bu gün həmin məscidlərdən demək olar ki, heç biri qalmayıb. Onların bəziləri tamamilə sökülüb, digərləri isə "restavrasiya" adı ilə ya dağıdılıb, ya da erməni mədəniyyəti kimi saxtalaşdırılıb. Məsələn, İrəvanda yerləşən məşhur Göy məscidin 1766-cı ildə tikildiyi məlumdur. Bu abidə uzun illər ərzində xalq arasında Abbas Mirzə məscidi kimi də tanınıb. Hazırda onun yalnız bir hissəsi qalır və o da "fars məbədi" kimi təqdim olunur.

Bu cür mədəni terrorun hədəfi azərbaycanlıların bu torpaqlardakı tarixi varlığını unutdurmaq və gələcək nəsillərin yaddaşından silməkdir. Lakin bu məqsəd heç vaxt tam reallaşa bilməz. Çünki milli yaddaş yalnız fiziki abidələrlə ölçülmür. O, həm də xalqın ruhunda, dilində, ədəbiyyatında, musiqisində, folklorunda yaşayır. Azərbaycan xalqının mədəniyyəti, eyni zamanda bəşəri dəyərlər daşıyır. Bu mədəniyyət məhv edilə, dağıdıla bilər, lakin onun ruhu heç vaxt yox ola bilməz.

İndiki Ermənistan ərazisində xalqımıza məxsus 3 min 500 tarix və mədəniyyət abidəsinin, 500 qəbiristanlığın və 391 məscidin erməni vandalları tərəfindən tamamilə yox edilməsi birbaşa faşist dövlət siyasətinin nəticəsidir. Bu, planlı şəkildə həyata keçirilmiş mədəni soyqırımdır. Bu siyasətin izləri Zəngəzur vilayətinin Qafan, Mehri, Xot, Şinuayr, Əlidərə kimi yaşayış məntəqələrində açıq şəkildə müşahidə etmək mümkündür. Bu ərazilərdə viran qoyulmuş 900-dən artıq tarix və mədəniyyət abidəsinin xarabalıqları, sanki bir xalqın izlərini torpaqdan silmək üçün atılan hər addımın susqun şahidləridir. İrəvan şəhəri bu mədəni soyqırımın ən bariz nümunəsidir. Vaxtilə burada yaşayan on minlərlə azərbaycanlının izləri bugün demək olar ki, tamamilə silinib.







Dəmirbulaq məhəlləsi XX əsrin əvvəllərində sırf azərbaycanlıların yaşadığı ərazi kimi tanınırdı. Burada yerləşən Hacı Novruzəli bəy, Hacı Cəfər bəy və Dəmirbulaq məscidləri bu xalqın dini-mənəvi həyatının mərkəzi olmuşdur. Amma 1988-ci ilin fevralında Ermənistanın azərbaycanlılara qarşı başladığı etnik təmizləmə kampaniyası fonunda bu məscidlər yandırıldı. Elə həmin günlərdə M.F.Axundov adına 9 nömrəli azərbaycanlı orta məktəbi də eyni aqibəti yaşadı. Məktəb və məscid birlikdə məhv edildi, çünki bir xalqın həm mənəviyyatını, həm də təhsilini hədəf almaq onun gələcəyini kökündən silmək demək idi.

İrəvanın yaxınlığındakı Cəfərabad kəndində yerləşən Əmir Səəd məqbərəsi bugünkü Ermənistan ərazisində azərbaycanlılara məxsus nadir salamat qalmış abidələrdəndir. Qaraqoyunlu əmirlərindən olan Əmir Səədin oğlu Pir Hüseyn bu məqbərəni 1413-cü ildə atasının xatirəsinə inşa etdirmişdir. Lakin sovet dövründə bu kəndin adı dəyişdirilərək "Arqavand" qoyulmuş, Azərbaycan izləri tədricən silinmişdir. Məqbərə bu gün də salamatdır, amma tək, kimsəsiz və tarixin unudulmuş bir küncündə.

İrəvanın Qala ilə Təpəbaşı arasında yerləşən Köhnə şəhər hissəsindəki Şəhər və ya Zal xan məscidi də 1687-ci ildə (hicri 1098) tikilmişdi. Məscidin memarlıq strukturu, onun üzərindəki ərəb əlifbası ilə yazılmış Azərbaycan dilindəki yazılar bu abidənin milli mənsubiyyətini açıq göstərirdi. Lakin 1928-ci ildə sovet hakimiyyətinin qərarı ilə məscidin böyük zalı sökülərək onun yerində "Yerevan" oteli tikildi.

Zəngibasar mahalında yerləşən Ağadədə ocağı Uluxanlı, Həbilkənd, Seyidkənd və Sarvanlar kəndlərinin mərkəzi ziyarətgahı idi. Qarasu çayının kənarında, Qulucan kəndinə yaxın ərazidə yerləşən bu ocaq Qərbi Azərbaycan türklərinin dini-mənəvi dayağı sayılırdı. 1988-ci il deportasiyası və soyqırımı zamanı bu ocaq da ermənilər tərəfindən dağıdıldı.

Qərbi Azərbaycan abidələrinin taleyi təkcə keçmişin faciəsi deyil, həm də gələcəyə cavabdeh olduğumuz bir məsələdir, çünki bir millətin tarixini silmək mümkün deyil. Qərbi Azərbaycan İcması, Azərbaycan dövləti və vətəndaş cəmiyyəti bu abidələrin sənədləşdirilməsi, beynəlxalq ictimaiyyətə təqdim olunması və gələcəkdə mümkün bərpası üçün çalışır. Çünki bu abidələr bütövlükdə Qafqazın tarixi-mədəni xəzinəsidir.

Azərbaycan tarixinin ən ağrılı səhifələrindən olan Qərbi Azərbaycan türklərinin öz dədə-baba torpaqlarından zorla köçürülməsi, eyni zamanda bir mədəniyyətin, yaddaşın, kimliyin parçalara ayrılması demək idi. Amma bu gün həmin yaddaş yenidən dirçəlir. Dövlətin siyasi iradəsi, vətəndaş cəmiyyətinin səyləri və ictimai dəstəyin birləşməsi nəticəsində "Qərbi Azərbaycana qayıdış" təkcə siyasi bir hədəf yox, həm də milli ideologiyanın əsas sütunlarından birinə çevrilir. Artıq 3 ildir ki, "Qərbi Azərbaycana qayıdış" mövzusu dövlət tərəfindən maliyyələşdirilən qrant müsabiqələrinin prioritet istiqamətlərindəndir. Bu müddətdə 50-dən çox qeyri-hökumət təşkilatının təqdim etdiyi 54 təşəbbüs layihəsi dövlət dəstəyi qazanaraq reallaşdırılıb. Bu layihələrin əsasını "Qayıdış Konsepsiyası" adlanan sənəd təşkil edir. Konsepsiyada indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz, ləyaqətli və sülh yolu ilə geriyə qayıtması əsas hədəf kimi müəyyən olunub. Layihələr yalnız yerli səviyyədə yox, beynəlxalq platformalarda da ciddi rezonans doğurub. Azərbaycan QHT-ləri BMT, ATƏT kimi təşkilatların toplantılarında iştirak edərək Qərbi Azərbaycanla bağlı ictimai diskussiyalar açıb, yan tədbirlər təşkil edib, mövcud beynəlxalq ictimaiyyəti məlumatlandırmağa nail olublar.

Bu tədbirlər coğrafi miqyas baxımından da genişdir. ABŞ, Belçika, İspaniya, Rumıniya, Polşa, Türkiyə, Özbəkistan, Qazaxıstan kimi ölkələrdə keçirilən konfrans və sərgilər Azərbaycanın vətəndaş cəmiyyətinin beynəlxalq səviyyədə necə təşkilatlanmasını və fəallıq göstərə bildiyini nümayiş etdirir. Qərbi Azərbaycana qayıdış mövzusu həm də folklorumuzun, musiqimizin, dialektimizin, toponimlərimizin və mədəni kodlarımızın yaşadılması prosesidir. Dövlətin dəstəyi ilə son illərdə Qərbi Azərbaycan türklərinə məxsus aşıq sənəti, el mahnıları, bayatılar, adət-ənənələr və ağız ədəbiyyatı nümunələri toplanır, yazılır və arxivləşdirilir. Bu proses mədəni dirənişdir. Çünki bu gün Zəngibasarın bayatıları, Göyçə türklərinin laylaları, İrəvanlı aşıqların havacatları xalqın tarixini əks etdirir.

Qərbi Azərbaycana qayıdışla bağlı proses cari ildə daha da genişlənib. Dövlət QHT-lərə verdiyi dəstəyin miqyasını artıraraq bu sahədə daha 51 layihəni maliyyələşdirib. Bu layihələrdə əsas vurğu "Qərbi Azərbaycana qayıdış: maddi-mədəni irs və hüquqlar" mövzusudur. Bu, məsələnin hüquqi aspektlərinin yanaşı mədəni və sosial bərpasına da yönəlməsini göstərir. İl ərzində bu istiqamət üzrə onlarla konfrans, dəyirmi masa, sərgi və sənədli təqdimatlar keçirilməsi planlaşdırılır. Bu tədbirlər Avropa və Türk dünyası ölkələrində də reallaşacaq. Məsələn, Belçikada Avropa Parlamenti yaxınlığında sərgi, Türkiyədə Qars və İğdır şəhərlərində Qərbi Azərbaycan mövzusunda mədəni forumlar, Özbəkistan və Qazaxıstanda diaspor təşkilatları ilə birlikdə təqdimatlar nəzərdə tutulur. Əgər 30 il boyunca Azərbaycanın milli ideyası Qarabağın azadlığı idisə, indi bu ideya Qərbi Azərbaycana qayıdışa həsr olunub. Çünki xalqımız artıq sübut edib ki, əgər iradə və birlik varsa, zaman keçsə də, ədalət bərqərar olar.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika $g 2025.- 12 iyun (№119).- S.5.